*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 57-63* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.57*

# İSLAM SƏFƏRLİ YARADICILIĞINDA ŞAİR VƏ YAZIÇILARIMIZIN BƏDİİ OBRAZLARI

**Salidə Şərifova**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: salidasharifova@yahoo.com

**Annotasiya.** İslam Səfərlinin poeziyasında obrazlar qalereyası rəngarəngliyi ilə fərqlənir. Şairin klassiklər və həmkarları haqqında olan düşüncə və hissləri bədii dillə təqdim edilir. İslam Səfərli bədii yaradıcılığında İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Aşıq Ələsgər, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mir Mehdi Seyidzadə, Süleyman Rəhimov, Sabit Rəhman, Səməd Vurğun, Mikayıl Müşfiq, Məhəmmədhüseyn Şəhriyar kimi söz xiridarlarının obrazlarını yaratmışdır.
İslam Səfərlinin İmadəddin Nəsimiyə həsr etdiyi "Nəsimi" nəğməsində sufi şairin parlaq obrazı, Məhəmməd Füzuliyə ithaf etdiyi "Qəlb şairi" şeirində Azərbaycanın qüdrətli söz ustadı Məhəmməd Füzulinin dolğun obrazı yaradılmışdır. İslam Səfərlinin Mirzə Cəlilə ithaf etdiyi "Şərqin şöhrəti" şeirində böyük ədibin möhtəşəm obrazı öz parlaq əksini tapmışdır. Mirzə Ələkbər Sabirin poeziyamızda tutduğu mövqe və fəaliyyəti isə şairin "Sabirim" adlı şeirində təqdim edilir. İslam Səfərlinin "1906-1956" adlı şeirində Səməd Vurğun vəsf edilir. Mikayıl Muşfiqə həsr etdiyi "Həsrətin nəğməsi" şeirində həmkarının keşməkeşli yolunu bədii dillə oxuculara təqdim edir. İslam Səfərlinin "Cəfərim mənim" şeirində Cəfər Cabbarlının bədii yaradıcılığı yüksək dəyərləndirilir.
İslam Səfərli Azərbaycan ədəbiyyatının görkəmli şair, yazıçı və dramaturqlarını yüksək dəyərləndirməklə, həmin sənətkarlara böyük ehtiramını əks etdirir.
**Açar sözlər:** İslam Səfərli, Azərbaycan poeziyası, şeir, poema, bədii obraz, klassik sənətkarlar

**Məqalə tarixçəsi:** göndərilib – 10.10.2023; qəbul edilib – 23.10.2023

# ARTISTIC IMAGES OF POETS AND WRITERS IN THE WORKS OF ISLAM SAFARLI

**Salida Sharifova**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi ANAS. Azerbaijan.
E-mail: salidasharifova@yahoo.com

**Abstract.** The gallery of images in the poetry of Islam Safarli is diverse. The artistic language presents the thoughts and feelings of the poet about the classics and contemporaries. In his work, Islam Safarli was able to create images of such intellectuals as Imadaddin Nasimi, Mahammad Fuzuli, Ashiq Alaskar, Jalil Mammadguluzadeh, Mirza Alakbar Sabir, Jafar Jabbarly, Mir Mehdi Seyidzade, Suleyman Rahimov, Sabit Rahman, Samad Vurgun, Mikayil Mushfig, Mohammad-Hossein Shahriar and others.
In Islam Safarli's song "Nasimi", dedicated to Imadaddin Nasimi, a vivid image of a Sufi poet is created, and in his poem "Poet of the Heart", dedicated to Mahammad Fuzuli, a powerful image of

the master of words of Azerbaijan, Mahammad Fuzulu, is created. The magnificent image of Mirza Jalil Mammadguluzadeh is presented by Islam Safarli in his poem "Glory of the East", dedicated to the great writer. The position and activities of Mirza Alakbar Sabir in poetry are presented in the poem "My Sabir". Islam Safarli's poem "1906-1956" praises Samad Vurgun. In the poem "The Song of Longing", dedicated to Mikayil Mushfig, the poet presents to the readers the turbulent path of his colleague in artistic language. Jafar Jabbarly is highly valued in Islam Safarli's poem "My Jafar".

Islam Safarli's high appreciation of outstanding poets, writers and playwrights of Azerbaijani literature reflects the writer's great respect for outstanding artists.

**Keywords:** Islam Safarli, Azerbaijani poetry, poem, the poem, artistic image, classical artists

**Article history:** received – 10.10.2023; accepted − 23.10.2023

## Giriş / *Introduction*

İslam Səfərlinin poeziyasında diqqəti cəlb edən amil şairin klassiklər və həmkarları haqqında olan düşüncə və hisslərini bədii dillə təqdim etməsidir. İslam Səfərli poetik nümunələri ilə İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Aşıq Ələsgər, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mir Mehdi Seyidzadə, Süleyman Rəhimov, Sabit Rəhman, Səməd Vurğun, Mikayıl Müşfiq, Məhəmmədhüseyn Şəhriyar kimi söz xiridarlarını vəsf etmişdir. Şair bu ədiblərin poetik nümunələrinin gələcək nəsillərə çatdırılmasını "Heca vəznliyəm..." adlı şeirində qələmə almışdır:

*Vaqifin, Ələsgərin,*
*Hər sözü el malıdır.*
*Füzuli, Sabir kimi*
*Vurğun da qalmalıdır!* [4, s.27]

## Əsas hissə / *Main Part*

İmadəddin Nəsimi (1369-1417) yaradıcılığı və şəxsiyyəti Azərbaycan elmi və sosial-siyasi dairələrin daimi marağındadır. Ədib İmadəddin Nəsimiyə həsr etdiyi "Nəsimi" şeirində sufi şairin yaradıcılığını "Əsrlərin söz sərrafı Nəsimi..." kimi dəyərləndirir. İslam Səfərli şairin ana dilə, mədəni irsə bağlılığını tərənnüm edir:

*Vəsf etdikcə elimizi,*
*Sən öz könül rübabında,*
*Sevdin ana dilimizi,*
*Şeir-sənət kitabında.*

Azərbaycan poeziyasında Nəsiminin ana dilində yazıb-yaratması faktı İslam Səfərlinin şeirində xüsusi olaraq qabardılır. İmadəddin Nəsimi mirasına yüksək dəyər verilməsi təqdirəlayiq bir tendensiyadır.

İslam Səfərlinin qüdrətli söz ustadı Məhəmməd Füzulinin dolğun obrazını yaratdığı "Qəlb şairi" şeirinin ilk misralarında Füzulinin sənətkarlığı tərənnüm edilir:

*Yarıb daş sinəli qərinələri,*
*Şerinlə ucaltdın özünə heykəl.*
*Keçdikcə ömrünün qaynar illəri,*
*Dünyaya bəxş etdin min incə qəzəl.*

Məhəmməd Füzulinin "Leyli və Məcnun" əsərini yaratması məqamına toxunan İslam Səfərli şairin söz xiridarı olmasını göz önündə canlandırır:

*Leylinin – Məcnunun təmiz eşqinə*
*Bir dastan yaratdı o şair təbin...*

Şeirdə şairə olan sevgi və rəğbət, ehtiram fonunda Məhəmməd Füzuli kimi dühanın obrazı canlandırılır:

*Bu sevda yolunun yorğunuyam mən,*
*Füzuli şerinin vurğunuyam mən!..*

İslam Səfərli Məhəmməd Füzulinin "Məni candan usandırdı" qəzəlindəki "Şəbi-hicran ya-

nar canım, tökər qan çeşmi-giryanım, Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?" beytinə müraciət edərək yazır:

*Nur olub süzüldün, su olub axdın,*
*Lakin oyanmadı o qara baxtın.*

Və ya

*Keçdin fırtınalı qərinələrdən,*
*Füzuli, oyatdı xəlqi əfqanın.*

Məhəmməd Füzulinin xalqın yaddaşına hopmuş "Oyadar xəlqi əfğanım, qara bəxtim oyanmazmı?" kimi ritorik sualını İslam Səfərli "Lakin oyanmadı o qara baxtın", "Füzuli, oyatdı xəlqi əfğanın" kimi cavablandırmışdır.

*Məhəmməd Füzulinin obrazını,*
*Yaşatdın, hifz etdin qudrətinlə sən*

Öz doğma dilini Azərbaycanın – kimi konkret beytlə ifadə edən İslam Səfərli şairin kəlamlarına istinad edərək, onun xalqın, millətin qan yaddaşında yaşadığına toxunur:

Yetər, ay Füzuli, şəbi-hicranın,
Sən qəlb şairisən Azərbaycanın!..

İslam Səfərli Mirzə Cəlil Məmmədquluzadəyə ithaf etdiyi "Şərqin şöhrəti" şeirində ədibin xalq dərdini çəkən ziyalı olmasını vurğulayır:

*Mirzə Cəlil! Mirzə Cəlil!*
*Doğuldunsa Nehrəmdə sən.*
*Yüz Nehrəmin dərdi keçdi*
*Vətəncanlı ürəyindən.*

İslam Səfərli Mirzə Cəlilin yalnız bədii obrazını deyil, həm də onun yaratdığı bədii obrazları da tərənnüm edir. Məsələn, milli ədəbiyyatımızın bədii nəsr tarixinin ən yüksək zirvəsində dayanan "Danabaş kəndinin əhvalatları" (1894) əsərinin əsas qəhrəmanı Məhəmmədhəsən əmi obrazının təqdimi ilə Azərbaycan ədəbiyyatında kiçik adamın böyük ədəbiyyata gəlişini məhz bu obraz vasitəsilə əks etdirir:

*Baxdın Həsən əmilərə,*
*Min bir əmin düşdü yada.*
*Tutuşdun bir qəm oduna,*
*Min bir qəmin düşdü yada.*

"Molla Nəsrəddin" jurnalının həm mətbuat tariximizin, həm də xalqın tarixi yaddaşında tutduğu mövqeyi şair belə açıqlayır:

*Mirzə Cəlil, Mirzə Cəlil!*
*Sadiq qaldın öz əhdinə.*
*Urəyinin hər sözünü*
*Verdin "Molla Nəsrəddin"ə.*

İslam Səfərlinin "Sabirim" şeirində Mirzə Ələkbər Sabirin poeziyamızda tutduğu özünəməxsus mövqeyi və xalqın milli şüuruna təkan verməsi bədii dillə vurğulanır:

*Qəflət yuxusundan bizi oyatdın,*
*Yanar göz yaşım sulara qatdın.*
*Elin qəm yükünü dəryaya atdın,*
*Çırpıldı sinənə dalğa, Sabirim,*
*Bənzədin qocaman dağa, Sabirim!*

İslam Səfərli Mirzə Ələkbər Sabirin xalqın yaddaşında yaşaması məqamını da bədii dillə təqdim edir:

*Səni urəklərdə yaşadır Vətən.*
*Dünyalar durduqca boy verəcəksən,*
*Sən ey şerimizin nuru Sabirim,*
*Qocaman Sabirim, ulu Sabirim!*

İslam Səfərlinin "1906-1956" adlı şeirində Səməd Vurğun vəsf edilir. Şeirin adında konkret şəkildə dahi şairin doğum tarixi və dünyasını dəyişdiyi illər əksini tapır:

*İnsan dünyaya gəlir,*
*Təvəllüdü yazılır.*
*İnsan dünyadan gedir,*
*Baş daşında bir tirə,*
*İki rəqəm qazılır...*

Səməd Vurğunun görkəmli şair, istedadlı dramaturq, alovlu publisist, tənqidçi və nəzəriyyəçi, tərcüməçi, dövlət xadimi kimi fəaliyyət göstərməsi bəllidir. Üç yüzdən yuxarı içtimai-

siyasi məzmunlu şeir, iyirmi altı poema, beş mənzum dram, iki yüzə yaxın məqalə, oçerk yazmış, bir çox məruzə və çıxışların müəllifi olan Səməd Vurğun kimi ədibin mənalı ömür sürməsini İslam Səfərli şeirdə xüsusi olaraq vurğulayır:

*Mənalı insan ömrü,*
*Heç vaxt getməyir hədər.*

Qeyd etmək lazımdır ki, "İslam Səfərlinin ədəbi aləmdə ilk addımlarını atmasında və tanıdılmasında da Xalq şairi Səməd Vurğunun böyük rolu olmuşdur... Özünəməxsus böyük istedad sahibi olan İslam Səfərli ustadı kimi qəbul etdiyi Səməd Vurğun məktəbi ənənələrinə yaradıcı münasibət bəsləmişdir. Əvvəla, o, mövcud şeir məktəbi məkanında oxşar motivlər üstündə yeni mənalar yaratmağı bacarmışdır" [1, s.6]. İslam Səfərli cismən olmadığı bir zamanda mənən yaşayan Səməd Vurğunun unudulmaz obrazını "Səməd gedən maşında mən" şeirində belə yada salır:

*Şofer dönüb mənə baxdı:*
*Əlli dörddə lap bu vaxtı,*
*– Bu maşında yanımdaca*
*Səməd Vurğun yol boyunca*
*Qaşlarını dartıb yaman*
*Düşünürdü zaman-zaman..."*

İslam Səfərlinin şair, tərcüməçi, pedaqoq, Azərbaycan Yazıçılar Birliyinin üzvü, "Azərnəşr"in keçmiş direktoru olmuş Mikayıl Muşfiqə həsr etdiyi "Həsrətin nəğməsi" şeirində şairə olan sevgisi bədii dillə təqdim edilir. Bəllidir ki, yaradıcılıq fəaliyyətinə çox erkən yaşlarında, 1926-cı ildə "Gənc İşçi" qəzetində çap edilən "Bu gün" şeiri ilə başlamış Mikayıl Müşfiqin qəbri və cəsədinin torpağa dəfn edilməsi haqqında məlumat əldə yoxdur. Mikayıl Müşfiq "Müsavat gənclər təşkilatı" ilə əlaqədar 1937-ci ildə saxlanılmış, SSRİ Ali Məhkəməsinin qərarı ilə 1938-ci il yanvar ayının 6-da Nargin adasında güllələnmişdir. Bədii yaradıcılığı da dövrün qurbanına çevrilən şairin Türkiyədə nəşr olunmuş 14 kitabı, başqa 5 kitabı, türk dilində 4 müxtəlif jurnal, 6 İran nəşri, 14 foto şəkil, pasportu, hərbi bileti, əşyaları müsadirə olunaraq yandırılıb məhv edilmişdir. Hətta şairin Xəzər dənizinə atılması haqqında iddialar da səsləndirilməkdədir. İslam Səfərli Mikayıl Müşfiqin dənizə qərq edilməsini poetik şəkildə təqdim etmişdir:

*Şair var, yurdunda qərq olub yadın,*
*Qəbri də özü tək tilsimlərdədir.*
*Yəqin ki, örtübdür qərib türbəni,*
*Yabanı çal-çayır, pəjmurdə yosun.*

Mikayıl Müşfiqin lirik və epik yaradıcılığı, əsas xüsusiyyətləri, repressiya qurbanına çevrilməsi sovet dövrü ədəbiyyatımızın tərkib hissəsidir. İslam Səfərli Mikayıl Müşfiqə sevgi və ehtiramını Hüseyn Cavidin şairə olan sevgi və ehtiramı ilə müqayisəli şəkildə əks etdirir:

*Deyirlər Cavidim çox sevib səni,*
*Mən niyə sevməyim, mən niyə susum?*

İslam Səfərli "Cəfərim mənim" şeirini Cəfər Cabbarlıya həsr edib. Şeirdə şairin bədii yaradıcılığı yüksək dəyərləndirilir:

*Ucalt, göyə qaldır sənət mülkünü,*
*Cəfərim, Cabbarlım, zəfərim mənim.*
*Dəryadan dərinsən, göydən qəlbisən,*
*Bir zümrüd quşusan, uçuşunla sən.*

Cəfər Cabbarlı yaradıcılığının çoxcəhətliliyi həmişə diqqəti cəlb edib. Otuz beş il ömür yaşamış ədibin "Od gəlini" romantik tarixi dram əsəri, Azərbaycan qadınının həyatından bəhs edən "Sevil" pyesi, sosializm quruculuğu dövrünü əks etdirən "Almaz" pyesi, erməni qarşıdurmasını əks etdirən "1905-ci ildə" pyesi və s. diqqətdən yayınmır. Cəfər Cabbarlı "Oqtay Eloğlu", "Od gəlini", "Sevil", "Almaz" pyesləri ilə milli dramaturgiyamızı problematika və obrazlar baxımından zənginləşdirmişdir. Ədibin pyesləri yeni cəmiyyət və insan, yeni ailə və əxlaq normalarının bədii təsvirinə geniş yer ayırır. İslam Səfərli yalnız Cəfər Cabbarlını vəsf etmir, onun yaratdığı obrazların ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi olmasını da vurğulayır:

*Elxanı, Yaşarı, Almazı sevən,*
*Sevili sevdirən Cəfərim mənim.*

Sovet dövründə ədəbiyyatımızda sosialist realizminin banisi hesab edilən Cəfər Cabbarlı

yaradıcılığında insan və aləm, şəxsiyyət və cəmiyyət novator konsepsiya şəklində formalaşır, klassik ənənə və yeni inkişaf istiqamətlərində vəhdət təşkil edir. Bu məqam da ədiblərimiz tərəfindən daim dəyərləndirilir.

İslam Səfərlinin Xalq yazıçısı Süleyman Rəhimova ithaf etdiyi "Dağ qartalı" şeirində Sovet dövrü Azərbaycan nəsrinin qüdrətli, öz imzası olan Süleyman Rəhimovu "dağ qartalı" adlandırması ədibin yaradıcılığına verilən yüksək dəyərdir:

*O, öz diyarına, doğma yurduna,*
*Elə ki, fərəhlə çevrilib baxır;*
*Xalqın dərya təbi verilib ona,*
*Coşqun dağ selləri qəlbindən axır.*
*Elini-gününü sevən sənətkar,*
*Ucalır bir qartal qanadı kimi.*

"Dağ qartalı" kimi təqdim edilən yazıçının bədii yaradıcılığı, yaratdığı bədii nümunələr qısa da olsa açıqlanır. Süleyman Rəhimovun bədii irsi, "Saçlı" romanında həyat həqiqətlərinin bədii əksi, "Aynalı" povesti və "Qafqaz qartalı" romanında tarixə müraciət, xalqın taleyinin, psixologiyasının, adət-ənənəsinin əksi bizi biganə buraxmır. İslam Səfərli də qısa təqdimatda yazıçının əvəzsiz bədii yaradıcılığını göz önündə canlandırır:

*"Şamo"nu bağrıma basıram, dostlar,*
*Mohtərəm ədibin övladı kimi.*

Mirzə İbrahimov Süleyman Rəhimovun yaradıcılığındakı hadisələrin real inikasını belə dəyərləndirir: "Xəlqilik Süleyman Rəhimov yaradıcılığının canıdır… O, xalqı tanıyır, onun xalqla tanışlığı səthi xarakter daşımır. O, xalqı kitablardan öyrənməmişdir" [2, s.209]. Süleyman Rəhimovun xəlqiliyi elə onun təqdim etdiyi obrazlarda özünü əks etdirir. Məsələn, Şamo obrazını təqdim edən müəllif, baş qəhrəmanının kəndli olmasını inqilabçı olmasından daha çox qabardır. İslam Səfərli şeirdə Süleyman Rəhimovun epopeya yaratması məqamına da toxunur:

*Sənəti ən canlı epopeyadır?!*
*Yarat, ey sənətin könül sirdaşı,*
*Doymaz yaratmaqdan sevdalı urək.*

İslam Səfərlinin şair Mir Mehdi Seyidzadəyə həsr etdiyi "Əsrin son gününə bərabər gedək" şeirində Mir Mehdi Seyidzadənin həm şair ilə dost olması, həm də poeziyası ilə yaxından tanış olmaq imkanı əldə edirik:

*Bizə deyirlər ki, gözəl dostdular.*
*Şairim, onlara bircə sözüm var:*
*- Dünya belə olub əzəldən bəri,*
*Təmiz ürəklilər daim dost olar!..*

İslam Səfərlinin "Mənalı gülüş" adlı şeirində biz Azərbaycan ədəbiyyatında daha çox komediya janrının kamil ustadı kimi tanınan nasir, dramaturq Sabit Rəhmanın dramaturgiya sahəsindəki xidmətlərinin bədii dillə təqdim edilməsinin şahidi oluruq:

*Çox duzlu-məzəli bir aləmin var.*
*Sabit! Cəfər kimi sev səhnəmizi,*
*Sənin öz nəfəsin, öz qələmin var.*

İslam Səfərli "Son faciə" povesti, "Nina", "Böyük gəlinlər" kimi romanlar, "Toy", "Aşnalar", "Aydınlıq", "Nişanlı qız", "Əliqulu evlənir" və s. kimi komediyalar müəllif olan Sabit Rəhmanın komediya janrına üstünlük verməsinə, həyatın komik cəhətlərini xüsusi məharətlə göstərməsinə, mənəvi saflıq və təmizlik mövzusunu komediyalarının mövzusuna çevirməsinə toxunur. Şair Sabit Rəhmanın yaradıcılığını göz önündə canlandıra bilir:

*"Toy"un səhnəmizə qədəm qoyalı,*
*Neçə Kərəmova toy tutub keçdin.*

Və ya

*Pərdələr açıldı, pərdələr endi,*
*Bizim "Nişanlı qız" gəzdi səhnədə.*

İslam Səfərli balaca bir poetik nümunəyə Sabit Rəhmanın bədii yaradıcılığını yerləşdirməklə bərabər, ədibin bədii yaradıcılığının ümumi mənzərəsini yaratmışdır:

*"Xoşbəxtlər" yüz dəfə açdı pərdəni,*
*"Aydınlıq" aydınlıq gətirdi bizə.*
*Yürüşə səsləyir "Koroğlu" səni*
*Sənət müjdəsi ver ellərimizə.*

İslam Səfərli "Göyçə gölü" adlı poetik nümunəsində Aşıq Ələsgərin obrazını canlandırır. "Göyçə gölü"nün möhtəşəm obrazını təqdim edən şeirdə aşıq sənətinin ustad sənətkarının xatırlanması, Göyçə gölü ilə əlaqəli şəkildə təqdim edilməsi tarixi yaddaşa bağlılığı əks etdirir:

*Çiynində telli saz aşıq Ələsgər,*
*Enib kənd icindən bulağa gəlir.*
*Hamı ona baxır yollar boyunca,*
*Qıvrım çal papağı yenə qaşında.*

Türk dünyasının böyük şairi Seyid Məhəmmədhüseyn Şəhriyar (1906-1988) ədəbiyyatın maraq dairəsində olub. Cənubi Azərbaycanın azadlığı uğrunda gedən mübarizədə iştirakçı olmuş Məhəmmədhüseyn Şəhriyarın ədəbi yaradıcılığında ikiyə bölünmüş vətənin həsrəti, onun azadlığı, tarixi keçmişinə hörmət əsas leytmotiv təşkil etmişdir. İslam Səfərli "Şəhriyarın düşüncələri" şeirində Məhəmmədhüseyn Şəhriyarın vətən həsrəti çəkən obrazını canlandırır:

*Parçalanmış vətən dərdli bu sinəm,*
*Göynəm-göynəm olaydı.*
*Arazım var, yelkənim yox üzməyə,*
*Torpağım var, haqqım yoxdur gəzməyə.*
*Bu hicranın həsrətinə dözməyə,*
*Tablı sinəm olaydı.*

Yaşar Qarayev Məhəmmədhüseyn Şəhriyarın "hər iki Azərbaycanda milli intibaha şərikli örnək" olmasını vurğulamışdır. Cağdaş türk şeirinin müştərək uğuru hesab edilən Məhəmmədhüseyn Şəhriyar "öz xalqı kimi, onun da ruhuna mənəvi zəncirdən şırım və çat düşmüş, qəlbi yüz zədədən min yerə paralanmışdır" [3, s.437].

Məhəmmədhüseyn Şəhriyar Quzey və Güney Azərbaycanın birləşməsi uğrunda mübarizədə bədii yaradıcılığı ilə öndə getmiş və Azərbaycan tarixində azadlıq carçısı kimi gələcək nəsillərə bir örnək qoya bilmişdir. Milli azadlıq hərəkatını, xalqın milli oyanışını, milli ruhunu əks etdirən Məhəmmədhüseyn Şəhriyarın poetikası xalqımızın milli özünüdərketməsində müstəsna əhəmiyyətə malikdir. İslam Səfərli qələmə almış olduğu "Şəhriyarın düşüncələri" şeirində bu məqamlara poetik dillə aydınlıq gətirir.

## Nəticə / *Conclusion*

Əməkdar incəsənət xadimi (1974) İslam Səfərlinin Azərbaycan ədəbiyyatının görkəmli şair, yazıçı və dramaturqlarını yüksək dəyərləndirməsi ədibin görkəmli sənətkarlara böyük ehtiramını əks etdirir. İslam Səfərli böyük ehtiram hissi ilə Azərbaycanın söz xiridarlarının möhtəşəm poetik çələngini, Azərbaycan şeirinin klassik sənətkarlarının bir qisminin yaddaqalan poetik obrazlarını yaratmışdır. Onun bədii yaradıcılığı həm bir vətəndaş, həm də bir ziyalı şair kimi ədəbiyyata verdiyi dəyərin göstəricisidir.

## Ədəbiyyat / *References*

1. Həbibbəyli, İ. Romantik pafosdan lirizmə. "Azərbaycan", 7 mart, 2013, № 52.
2. İbrahimov, M. Həyat və ədəbiyyat. – Bakı: Azərnəşr. 1947
3. Qarayev, Y. Tarix: yaxından və uzaqdan. – Bakı: Sabah, 1996.
4. Səfərli, İ. Seçilmiş əsərləri. – Bakı: Lider nəşriyyat, 2005.

# ХУДОЖЕСТВЕННЫЕ ОБРАЗЫ ПОЭТОВ И ПИСАТЕЛЕЙ В ТВОРЧЕСТВЕ ИСЛАМА САФАРЛИ

**Салида Шарифова**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: salidasharifova@yahoo.com

**Резюме.** Галерея образов в поэзии Ислама Сафарли отличается многообразием. Художественным языком представлены мысли и чувства поэта о классиках и современниках. В своем творчестве Ислам Сафарли смог воссоздать образы таких личностей, как Имадеддин Насими, Мухаммед Физули, Ашик Алескер, Джалил Мамедгулузаде, Мирза Алекпер Сабир, Джафар Джаббарлы, Мир Мехди Сеидзаде, Сулейман Рагимов, Сабит Рахман, Самед Вургун, Микаил Мушфиг, Мухаммадхусейн Шахрияр и др. В песне Ислама Сафарли «Насими», посвященной Имадеддину Насими, создан яркий образ суфийского поэта, а в его поэме «Поэт сердца», посвященной Мухаммеду Физули, создан могучий образ мастера слова Азербайджана Мухаммеда Физули. Великолепный образ Мирзы Джалила представлен Исламом Сафарли в стихотворении «Слава Востока». Взгляды и деятельность Мирзы Алекпера Сабира представлены в поэме «Мой Сабир». Стихотворение Ислама Сафарли «1906-1956» восхваляет Самеда Вургуна. В стихотворении «Песнь тоски», посвященном Микаилу Мушфигу, поэт художественным языком представляет читателям бурный путь поэта. Высоко оценен Джафар Джаббарлы в стихотворении Ислама Сафарли «Мой Джафар». Высокая оценка Исламом Сафарли выдающихся поэтов, писателей и драматургов азербайджанской литературы отражает глубокое уважение писателя к выдающимся деятелям искусства.

**Ключевые слова:** Ислам Сафарли, азербайджанская поэзия, стихотворение, поэма, художественный образ, классики